


مرتضي مجدفر

## ایتگین اولدوزون دونیایا سؤزو وار

«ع. آغ چایلي» آدي ایله شهرت تاپان "علیرضا ذیحق"، چاغداش آذربایجان
ادبیاتي نین گؤرکملي سیماسي و حئکایه ژانري نین قدرتلي یازاري دیر.
او 1359 - نجو ایلده، تبریزده بوراخیلان "دده قورقود» آیلیق ادبي مجله
سي نین باش کاتیبي و او نشریه ني بوراخان "حسین اولدوز»ون
امکداشلاریندان ایدي. او، کئچن ایگیرمي بئش ایلده، آذربایجان ادبیاتي و

فولکلورونون انکشافي یولوندا یورولمادان چالیشیب و مختلف اثرلر بوراخمیشدیر. «ایتگین اولدوز» ایسه، اونون حئکایه لر مجموعه سي دیر و بو گونلر تهراندا نشر زوفا توسطي ایله چاپ اولموشدور. بو حئکایه لرین بیر چوخو، واختیله 1359 و 1360-نجي ایللرده چیخان کوراوغلو و دده قورقود مجله لرینده چاپ اولموشدور و ائله او گونلرین حال - هاواسیني داشییر. بو حئکایه لرین بیر چوخوندا ساتیریك تمثیل لري گؤروروك.ذیحق، حئکایه یازما دا اوستادیر. او فارسجا، هم ده تورکجه یازیر. اونون «زخم شیشه» آدلي فارسجا حئکایه لر مجموعه سي، 1380-دا چاپ اولموش و مطبوعاتدا آلقیشلار قازانمیشدي. هم ده ایللر بوندان قاباق، آغ چایلي نین «آذربایجان گولوشو»، «قاشقایي ائل ادبیاتي» و "غلام حیدر داستاني" آدلي کیتابلاریني گؤروب، اوخیوب و دؤنه-دؤنه بگنمیشیك.
کیتابین اوز قابیغي، علیرضا ذیحق کیمي خویلو اولان و دونیا شهرتلي رسام "اوستاد جعفر نجیبي" نین چکدیگي کوراوغلو پرتره سي دیر. بو اثرین گؤزل و تاثیرلي اولدوغونا باخمایاراق، کیتابین ایچینده کي اون اوچ حئکایه ایله، باغلیلیغي یوخدور. بونونلا بئله، کیتابین چاپي، کاغیذي و قابیغین قاردونو اعلادیر و یازیلیش بابتیندن ده، گؤزه چارپان بیر یانلیش یوخدور. کیتاب آلتمیش صحیفه ده چاپ اولموش و اونا مین تومن قیمت قویولموشدور.
ایتگین اولدوزون تیراژي 300 نسخه دیر. بو تیراژي گؤردوکده، اینسان شرم ائدیر. مدنیت اوجاغي اولان آذربایجانیمیزدا، اون میلیوندان چوخ اینسان یاشاییر و ایراندا یاشایانلارین یاریدان چوخو تورکجه دانیشیرلار. گؤره سن تورکجه کیتابلارین تیراژیني نئجه چوخالتماق اولار؟

ذیحق معلمه، معلم چیلیك گونلري نین سون ایللریني ده اوغورلو آرخادا قویماسینا «قوّت اولسون!» دئییریك و اومید ائدیریك گلن کیتابیني 300 مین نسخه لي تیراژلا سیزلره تانیتدیراق.

Murtəza Məcdfar

İtgin ulduzuun dunyaya s?zu var

"Ə.Ağçayli" adi ılə ş?hrət tapan "Əliriza Zihaq", çağdaş azərbaycan ədəbiyyatinin g?rkəmli siması və hekayə janrinin qudrətli yazarıdir. O 1979 –cu ildə , təbriz de buraxilan " Dədə Qorqud" aylıq ədəbi məcəlləsinin baş katibi və o nəşriyyəni buraxan" Huseyn Ulduz"un əməkdaşlarindanıdı. O,keçən 25 ildə, azərbaycan ədəbiyyati və folklorunun ınkişafi yolunda yorulmadan çalısıb və muxtəlif əsərlər buraxmışdır. " İtgin Ulduz" isə, onun hekayələr məcmuəsidir və bu gunlər tehranda nəşre" Zufa "  təvəssut ılə çap olmuşdur. Bu hekayələrin bir çoxu, vaxtilə 1979 və 1980 – ıncı  illərdə çıxan "Koroğlu" və "Dədə Qorqud" məcəllərində çap olmuşdur və elə o gunlərin hal- havasını daşiyir. Bu hekayələrin bir çoxunda satirik təmsilləri g?ruruk. Zihəq hekayə yazmada ustadır. O farsca , həmdə turkcə yazır.

Onun " Zaxmeşie"(şuşə yarasi) adli farsca hekayələr məcmuəsi, 2001 – də çap olmuş və mətbuatda alqlşlar qazanmışdı. Həm də hllər bundan qabaq," Ağçaylı"nın " Azərbaycan Guluşu", "Qaşqay el ədəbiyyati" və " Ğulamheydər Dastani" adli kitablarını g?rub , oxuyub və d?nə - d?nə bəyənmişik.

Kitabin uz qabiği,Əliriza Zihaq kimi xoyly olan və dunya ş?hrətli rəssam " Ustad Cəfər Nəcibi " nin çəkdiyi Koroğlu portrəsidir. Bəsərin g?zəl və təsirli olduğuna  baxmayaraq , kitabın içində ki 13 hekayə ılə , bağlılıqı yoxdur. Bununla belə, kitabın çapi, kağızı və qaığın qardunu əladır və

yazılış  babətindən , g?zə çarpan bir yanlış yoxdur. Kitab 60 səhifə də çap olmuş və ona min tumən qiymət qoyulmuşdur.
" İtgın Ulduz" un tiraji 300 nusxədir. Bu tiragi g?rdukdə , insan şərm edir.
 Mədəniyyət ocağı olan azərbaycanimızda, 10 milyondan çox insan yaşayır və iranda yaşayanların yarıdan çoxu turkcə danişirlar. G?rəsən turkcə kitabların tiragını necə çoxaltmaq olar?
Zihaq muəllimə, muəllimçilik gunlərinin son illərinidə uğurlu arxada qoymasına " quvvət olsun" diyirik və umid edirik gələn kitabi 300min nusxəli tiragla sizlərə tanitdlraq.

2006






This document was created with Win2PDF available at http://www.daneprairie.com.
The unregistered version of Win2PDF is for evaluation or non-commercial use only.